# Hər kitab bir dünyadır




## Klassik irsə məhəbbətlə

**Respublika Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə yenicə işıq üzü görmüş "Nəsimi və Füzuli" adlı kitabında da ənənəsinə sadiq qalaraq söz korifeylərimizin həyat və fəaliyyətinə geniş aspektdə nəzər salıb.**

"Elm və təhsil" nəşriyyatında çap olunmuş kitabda klassiklərin irs kontekstində fərdi yaradıcılığın bədii-fəlsəfi təkamülü məsələləri araşdırılır. Müəllif nəzəri-analitik təhlil yolu ilə orta əsrlərin söz dahiləri olan Nəsimi və Füzuli poeziyasının sehrini – bədii-fəlsəfi mənasını, unikal simvolik-metaforik formasını, bütövlükdə poetik sistemini açmağa çalışıb. Monoqrafiya filoloqlar, filosoflar, bu sahə ilə məşğul olan doktorantlar və Azərbaycan klassik ədəbiyyatını sevənlər üçün nəzərdə tutulub.

## "Millətçiliyin cəzası"

**Özbəkistanın tanınmış yazarlarından biri Xeyrəddin Sultanın "TÜRKSOY kitabxanası" seriyasından 59-cu nəşr olan kitabı belə adlanır.**

Müəllifin indiyə qədər 20-dən artıq kitabı nəşr olunub, əsərləri müxtəlif dillərə çevrilib. Onun hekayə, povest və romanlarına dərin bir lirizm, realizm hakimdir. Kitabını özbək dilindən çevirən və "Ön söz"ün müəllifi olan BDU Türkoloji Araşdırmalar Mərkəzinin müdiri, professor Ramiz Əskər Xeyrəddin Sultanın yaradıcılıq məziyyətlərini əhatəli təhlil süzgəcindən keçirərək hekayələrinin süjet xətti və təhkiyəsinin həzin, original olduğuna diqqəti cəlb edib. "Bəxt", "Atabəyin dəfni", "Vəlican dayının xəstəliyi", "Millətçiliyin cəzası", "Anamın yurdu" kimi əsərləri haqqında ürək sözlərini böyük məhəbbətlə ifadə edib.




***Ə.DOSTƏLİ***
***XQ***

Xalq qəzeti .- 2024.- 18 yanvar, № 010.- S.11.